## Tofiq Həsənli

### Gözümün Qarası

Yığışıb gözümün içinə köçdün
Gözümə bir daha girən olmasın.
Sərirəm üstünə kipriklərimi,
Səni gözlərimdə görən olmasın.

Gözümün ağında yuxulayırsan,
Gözümün qarası sənə balıncdı.
Üstünə sərdiyim kipriklərim də,
Yuxumu kəsməyə neçə qılıncdı.

Gözümə çəkirəm baxışlarını,
Baxıram, nə zaman oyanacaqsan?
Yılğıb saxlamışam gözyaşlarımı,
Yuxudan oyanıb yuyunacaqsan.

Gözlərin gözümdən boylanır nəsə,
Gözümün içindən görmürsən məni.
Əgər gözlərimin içindəsənsə,
Bəs niyə yollarda gəzirəm səni?